

**BƏDİRXAN ƏHMƏDLİ,**
*professor*

# LƏYAQƏTİN ANATOMİYASI

*Hamlet İsaxanlının 70 yaşına*

*"525-ci qəzet"in 5 may 2018-ci il tarixli nömrəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının poetik yaradıcılığı haqqında dərc olunmuş məqaləni təqdim edirik.*

Hamlet İsaxanlı ixtisasca riyaziyyatçıdır, bu onun yaradıcılığının ana xəttidir, çoxparametrli spektral nəzəriyyə üzrə bir çox elmi əsərlərin müəllifidir. Həm bir alim, həm də təhsil islahatçısı kimi ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Kanada, Almaniya və b. ölkələrdə yaxşı tanınır.

Onun yaratdığı Xəzər Universiteti bu gün də Azərbaycan təhsil sisteminin önündə gedən məkandır. Ədəbiyyat, mədəniyyət və incəsənətin, siyasi və media mədəniyyətinin inkişafında müəyyən rolu var. Bütün bunlar və sadalaya biləcəyimiz bir çox ali keyfiyyətlər Hamlet İsaxanlının Azərbaycan cəmiyyətində çoxdan formalaşmış, hamı tərəfindən qəbul edilmiş obrazıdır. Ancaq yeni minilliyin ilk yüzilliyində biz onu həm də bir şair kimi tanıdıq. Bəlkə bunun bir rəmzi mənası da var. Görkəmli adamların ömrün müəyyən dayanacaqlarında poeziyaya müraciəti çox olmuşdur. Riyazi tənliklərin poeziyasından həyatın poetik ifadəsinə keçmək özünüifadənin bir yoludur. Üstəlik gəncliyindən şeirlər yazmasına rəğmən, son illərdə çap etdirməyə başlayıb: "Təzadlar" (2001), "Bu da bir həyatdır" (2004), "Dördlüklər" (2007), "Ziyarət" (2009) və s. kitabları işıq üzü görüb. Şeirləri rus, ingilis, çin, gürcü, eston, türk və başqa dillərə tərcümə edilib. Ancaq bu tarix onun poeziyaya gəlişinin başlanğıcı deyil; uzun müddət yaradıcılığının ana xətti riyaziyyat poeziyanı üstələsə də, sonunda poetik yaradıcılığı boy göstərib. Biz də burada Hamlet İsaxanlının poetik yaradıcılığından söhbət açacağıq.

Ədəbi prosesə müstəqillik dövründə daxil olan H.İsaxanlının poetik yaradıcılığı hiss ilə fikrin, ağıl ilə bədii təxəyyülün qovuşuğundan yaranıb. Olsun ki, bu müəllifin elm adamı, riyaziyyatçı olmasından irəli gəlib. Şairin təbiətində elmi təfəkkürlə bədii təfəkkür sintez şəklində qovuşub. Onun poeziyası ilk baxışdan sadəliyi ilə fərqlənir; belə ki, həm forma, həm də məzmun baxımından ənənəvi görünür, lakin bu heç də şairin ənənəvi poeziya yollarında hərəkət etməsi anlamına gəlməməlidir. Şeirlərində heca, hecalı sərbəst, ritmik sərbəst, eləcə də digər vəznlərin qovuşuğunu və qarışıq istifadə poetik təkamülünün əsas xüsusiyyətlərindən biri kimi səciyyələnir. Ənənəvi formanın özü belə şairdə yeni bədii təsvir və ifadə vasitələrindən, poetik fikrin yeni formada ifadəsini şərtləndirir. H.İsaxanlının şeirlərində ideya qaranlıq bir kölgə altında, yaxud qatı duman içində gizlədilmir, açıq tendensiya ilə deyildiyindən şairin məqsədi də oxucuya tez çatır. Məzmun etibarilə də bu şeirlərdə yeni poetik fikir formalaşdırılır; burada sevincdən, qəmdən, kədərdən yaranan şeirlərlə yanaşı, sadəcə hər hansı əhvali-ruhiyyəni əks etdirən ovqat düşüncəsi də aparıcı olur. Az sözlərlə mənalı fikir ifadə etmək H.İsaxanlı poeziyasının səciyyəvi cəhətlərindəndir. Ümumən, həyat və ömür haqqında böyük və kiçik həcmli şeirlər çoxdur; H.İsaxanlı isə cəmi üç sətirdə həyatın fəlsəfəsini belə ifadə edir:

*Ömür var, mənası -ye, iç, yat,*
*Nə dərin həyəcan, nə fəryad.*
*Sevdasız bir həyat-nə həyat?!*

Bütün bunlar patetik səslənmir, şairin dünyaya baxışının yeni bədii formulu kimi səslənir. Bu şeirlərin hər birinin əsasında fikir durur, məhz bu fikir şeirin ideyasının strukturunu təşkil edir; lakin bu surroqat şəkildə deyil, obrazlı şəkildə ifadə olunur. Şairin əksər şeirlərində elmi mühakimə, fəlsəfi çalarlarla bədii təxəyyül qoşa qanad kimi çıxış edir. Həyatımızdakı təzadlar yeni donda və biçimdə təqdim olunur, bəzən bütöv bir şeirdə, bəzən isə bir misrada həyatın fəlsəfi çalarlarını verməyi bacarır.

"Saçımda meh gəzir, ayağımda şeh", "Bu nə sevgi, nə fəlsəfə? Sevməyənlər kef-damaqda", "Ömrümüzdən keçən illər, Bəhsə girdi xeyirlə şər", "Təklik-fikrimizn səsləndiyi Ən uca yüksəklik" ve s. misralarında dünyanın, gerçəkliyin, həyatın antitezaları açılır. Onun şeirlərində fikrin, mentiqi mühakimənin olması yeni poetik mətnlərin yaranmasına nədən olur. Bu mətnlər strukturuna görə yeni olduğu kimi, safdır, bulaq suyu kimi temizdir, lüzumsuz təferrüatdan, gərəksiz ricətlərdən uzaqdır. Bu mənada şairin şeirləri müəyyən ölçüyə malikdir; heç zaman endazəni aşmır, fikri uzatmır, parıltıdan, dəbdəbədən qaçır. Adi, tanış və sadə sözlərlə həyatdakı, təbiətdəki qeyri-adiliyi göstərməyə çalışır:

*Əyildim otlara diz üstə çökdüm,*
*Güllərin ətrini içimə çəkdim.*
*Günəş də telini çəmənə sərdi*
*Daha nə möcüzə istəyəcəkdim.*
*Yeridim meşələr, dağlar arası*
*Meh əsdi, yarpaqlar səs-səsə verdi.*
*Bəlkə məlhəm tapa könül yarası*
*Üşümüş qəlbimdə bir od közərdi.*

Bir şair kimi Hamlet İsaxanlı poeziyasının səciyyəvi cəhətləri çoxdur; ancaq onlardan ən başlıcası hisslərinin, duyğu və düşüncələrinin təbiiliyi və səmimiliyidir. Şairin son iyirmi ilin ədəbi prosesində (şair üçün bu elə də böyük bir zaman deyil!) özünü təsdiq etməsi və şeirlərinin bu qədər geniş əks–səda doğurmasını şərtləndirən amillər də məhz bununla bağlıdır. Şair bədii axtarışlarında, demək olar, vaxt itirmədi, yeni, orijinal poetik tapıntılarla özünün gələcək poetik yolunu müəyyənləşdirdi. Hər bir şair üçün bu əsas şərtlərdən biridir. H.İsaxanlı da müxtəlif formalı, janrlı şerlərdə bədii axtarışlara, poetik fikrin orijinallığına xüsusi fikir verdi. Ən kiçik şeirində belə həyat, dünya ilə bağlı duyğularını, poetik fikirlərini orijinallıqla ifadə etməyə çalışdı. O, yaxşı başa düşürdü ki, poeziyada deyilməmiş fikir yoxdur, ancaq onu yeni formada, orijinal ifadə tərzi və metaforalarla təsvir etmək şair fərdiyyətinin ömürlüyü ola bilər. Bu cəhətdən şairin şeirlərində ənənəviliklə yenilikçilik yanaşı durur. Bunu nəzərdə tutan fəlsəfə elmləri doktoru C.Mustafayev yazır: "Hamlet İsaxanlı bizim poeziya ənənələrimizə yeni yolla yanaşır. Bu yenilik özünü Hamlet İsaxanlı yaradıcılığında söz və canlı mənanın dialektik vəhdətində göstərir. Həqiqət budur ki, yaradıcı məna daşımadan heç bir poetik söz uzun müddət yaşamaq haqqı qazana bilmir. Hamlet İsaxanlı poeziyası, sadəcə, bədii zövqü oxşamaqla məhdudlaşmır. Onda estetiklik canlı fikirlə vəhdətdə poetik əksini tapır. Hamlet İsaxanlının şerlərini oxucular özlərinin mənəvi – estetik maraqlarına, zövqlərinə uyğun kəşf edəcəklər".

H.İsaxanlının yaradıcılıq sirri də məhz bundadır; onun yaradıcılığında məhəbbətdən başlamış dünya hadisələrinə qədər müxtəlif mövzular, yeni semantikada, üslubda təqdim olunur. Müxtəlif problematikalı şeirlərində dünyanın, həyatın dərki başlıca yer tutur. Həyatın filosofcasına dərki H.İsaxanlı poeziyasının səciyyəvi xüsusiyyətidir; burada həyat da var, həyatın təzadları və ziddiyyətləri də var, bir də bunlardan çıxan məna, poetik məntiq var. "Son xatirələr", "Məndən sonra", "Sənsizlik", "Dəniz sahilində görüş", "Ya sən, ya heç", "Nə olardı" və s. şeirlərində həyata, dünyaya yeni baxış bucağından baxır. Bu cəhətdən "Son xatirələr" şeirinə nəzər salaq. Belə ki, xatirə, ölümdən sonrakı həyat həmişə maraq doğurub, H.İsaxanlının şeirində isə bu həyatın fəlsəfi dərki özünəməxsus şəkildə verilir. Zahirən hamıya məlum bu həyat şeirdə yeni biçimdə və yeni metafora ilə anladılır:

*Getdiyim yol qırılacaq*
*Bir gün tamam bitəcək.*
*İçimdəki payız rəngli xatirələr*
*Yarpaq-yarpaq budağından üzüləcək,*
*Töküləcək, itəcək.*
*Elə o gün ömrüm sona yetəcək*
*Səsim bəzi qulaqlarda qalacaq*
*Kimlərsə şeirimdən ilham alacaq*
*Sözümü kimlərsə yada salacaq-*
*Adamın allahı var*
*Yada salmaqdan bezmir insanlar.*

Burada ideya, ideyanın büründüyü bədii struktur və düşüncə konstruksiyası da yenidir; həyat mürəkkəbdir, mürəkkəb olduğu qədər də ziddiyyətlidir; lakin bu həyatdan bizdən sonra qalacaq xatirənin özünün ömrü necə olcaq? O nə zaman bitəcək? Həyat haqqında verilən bu suallar həyatın özünün obrazını yaratmış olur. Sonuncu bənddə şairin bu ömürlə bağlı fəlsəfi qənaətləri ümumiləşdirilir. Özü də şair sonuncu hissəni (poetik qənaətlərini!) tamamilə yeni ahəng və intonasiyada təqdim edir. Parçanın ümumi ahəngi ilə strukturin daxili dinamizmindəki gələcək zaman şəkilçiləri şeirin döyünən ritmini müəyyən edir:

*Olacaq, çox işlər olacaq...*
*Dünya yeni insanlarla dolacaq*
*Mənə bağlı xatirələr*
*Seyrələcək, saralacaq, solacaq,*
*Yarpaq-yarpaq budaqlardan üzüləcək,*
*Töküləcək, itəcək-*
*Xatirə də bir həyatdır, bir ömürdür*
*Bir gün o da bitəcək.*

Hamlet İsaxanlının poeziyasını səciyyələndirən başqa bir xüsusiyyət onun şeirlərinin yeni düşüncə tərzi və formalardan istifadə etməsindədir. O, hecada yazdığı kimi, sərbəst və ya ritmik sərbəstdə də yazır. Şairin heç bir ənənə cığırına sığışmayan, azad, sərbəst ifadə formasıyla seçilən poeziya nümunələri də var ki, burada heca ilə sərbəstin qovuşuğu aydın hiss olunur. Bu cür şeirlərində şair yeni formalar yaratmış olur. Sərbəst şeirin özündə belə daxili bölgülərdə qafiyələrlə şeirin intonasiyasını təmin edir. "Qaramtıl işıq", "Dəniz sahilində görüş", "Hər sevən yetməz ki kama", "Bu nə sevgi, nə fəlsəfə", "Ya sən, ya heç" və s. şeirlərinin hər birinin özünəməxsus daxili bölgüsü və bu bölgüdən yaranan orijinal ritmi var:

*Saçımda meh gəzir, ayağımda şeh*
*Xəyalım sevdalı, əməlim saleh*
*İçdiyim su zəm-zəm,*
*şair ruhum dəm...*
*Duyan varmı görən?*
*Varsa-xeyli kəm...*
*Düşünürəm hərdən: meydanda təkəm*
*Mənə soyuqdur*
*Ölmüşəm, ortadan götürən yoxdur*

H.İsaxanlının şeirləri müxtəlif mövzuludur; burada məhəbbət, dünya, həyat, insan mövzusu şairin poetik yaradıcılığının əsasını təşkil edir. "Səni sevdim çox sadəcə" şeirində real dünyəvi sevginin sadə gözəlliyi, "Səs" şeirində isə gözəlliyi könüllərin vəhdətini yaradan ecazkar qüvvə kimi anladır. "Ölümə nə var ki" şeirinin leytmotivini dünya, yaşamaq uğrunda mübarizə zərurəti təşkil edir və yaşamağın ölməyə gedən yol olduğu vurğulanır. "İstanbul, Boğaziçi" şeiri isə duyğusal bir şeirdir; burada insanın təsəvvüründə ani olan, amma unudulmaz etüdlər canlandırılır və dünyanın bütün ayrılıqları xatırladılır. "Səni sevdim çox sadəcə" şeirində vətən məhəbbəti əks etdirilir. Təsadüfi deyil ki, şair Zəlimxan Yaqub bu şeiri Səməd Vurğunun "El bilir ki, sən mənimsən" sözləri kimi sadə və gözəl olduğuna diqqət çəkir. Şairin «Şər və xeyir», «Ömrün harasındayıq?», «İşıq və qaranlıq», «Od kökü üstə bitər» kimi şeirləri oxucuya yüksək mənəviyyat aşılayır. "Dənizdə bir quş" şeirində mənəvi dünyasındakı təlatümlərin mahiyyətini axıracan dərk etmək, duymaq üçün dənizdə ağlayan quşu Vətəndə, ya qürbətdə, uzaqda, ya yaxında olmağından asılı olmayaraq, arzularını göyərdə bilməyən insan kimi təsəvvür edir.

H.İsaxanlı formasından asılı olmayaraq bütün şeirlərində həm də bir filosof kimi çıxış edir; dünya, cəmiyyət, təbiət haqqında poetik fikirlər onun şeirlərində səpələnmiş haldadır. Hər bir şeirinin sonunda sanki fəlsəfi ümumiləşdirmələr aparır. Onun heç kimə bənzəməyən yazdığı formalarda (rübailər, bayatılar, yarpaqlar, məcazlar) fəlsəfi məzmun həm də formanın özünün mahiyyətindən gəlir. Şair burada heç kimin nə formaca, nə də məzmunca getdiyi yolu getməmiş, poeziyanın estetik mahiyyətini ruhuna hopdurmuşdur. Rübai və bayatı forması ənənədən gəlmədir, ancaq bu ənənəvi formada şair poeziyamıza tamamilə yeni ifadə tərzi gətirmişdir. Onun dördlükləri fəlsəfi təzadlarla zənginliyi ilə seçilir. Forma və poetik struktur cəhətdən tamamilə yeni olan bu dördlüklərdə hadisə və predmetlərin özünəməxsus əlaqə formaları poetik təhlilə cəlb edilir və fəlsəfi nəticələrə varılır. Rübailərdə həyat və dünya hadisələri yeni rakursda təsvir edilir:

*Başlanğıc olubsa, söylə, o nədir?*
*Öncə kainatdır, ya düşüncədir?*
*Məhdud ağlımızla əbədiyyəti*
*Dərk edə bilmirik, iş çox incədir.*

Yaxud:

*Dərin bir ahənglə dövr edir aləm*
*Mən bu dərinlikdən hali deyiləm*
*Yığın-yığın kitab gözləyir məni*
*Ömür yetməyəcək, budur dərd-ələm*

Bu cür rübailər çağdaş poeziyanı yalnız forma, poetik struktur cəhətdən deyil, həm də məzmun etibarilə zənginləşdirir. Şair hadisələrə yalnız bir müstəvidən baxmır, damla ilə dəryanın vəhdətindən çıxış edir, gecə-gündüz, yaxşı-pis, dərinlik-səthilik kimi təzadlar şairin həyat haqqında düşüncələrini poetik təfəkkürdən keçirir. Şairin rübailərində analitik təfəkkür həyatı, dünyanı an, məqam kontekstində deyil, bir dəfə yaşanmış ömrün poetik qənaətləri kimi ortaya çıxır.

H.İsaxanlının istər rübailərində, istərsə də bayatılarında insan, dünya, həyat xeyir-şər müstəvisində təhlil edilir. Ənənəvi bayatı formasında şair yeni dünya insanını düşündürən problemləri son dərəcə lakonik şəkildə göstərir. Şair ətrafımızda, dünyamızda yer tutan şərin əleyhinədir, onu yaxına buraxmamağı bildirir:

*Ətrafı tutarsa şər*
*Ürəyi boğar kədər*
*Yanıb-yaxılar ürək*
*Yana bildiyi qədər.*

H.İsaxanlının özünəməxsus bu formalardan yarpaqları forma-məzmun vəhdəti baxımından çağdaş poeziyamızı zənginləşdirir. Xüsusi qafiyə və heca məhdudiyyəti olmayan yeddilik, onbirlik və onbeşliklərdən ibarət yarpaqlarda təzadlar və kontrastlar poetik fikrin çatdırılmasında yeni forma kimi diqqəti

cəlb edir. Bu formanın həm hecalarda, həm də qafiyələnmədə verdiyi sərbəstlik şairin dünyaduyumunu poetik şəkildə əks etdirməyə imkan verir:

*Fikir karvanını saxlamaq olmaz*
*Ağıl güc gəlsə də ürək aldatmaz*
*Qarşıda nə varsa yaradan qurur*
*Könlümsə keçmişlə oturub-durur.*

Ümumiyyətlə, H.İsaxanlının poetik yaradıcılığında forma məhdudiyyəti yoxdur; o, eyni dərəcədə xalq şeiri üslubunda, qəzəl janrında da yazır və ən əsasını-özünü ifadə edə bilir. Aşıqsayağı, xalq mahnısı üslubunda şeirlərinin olması da bunu deməyə əsas verir. "Qədər bumu?" qəzəli bu cəhətdən diqqəti cəlb edir. Əslində qəzəllərin adı şeirin birinci misrası ilə adlanmalıdır. Lakin şair ona xüsusi ad vermişdir. Buna baxmayaraq, qəzəl forma-məzmun vəhdəti baxımından yeni dövrdə janrın imkanlarını daha da genişləndirmişdir:

*Səni itirmək qorxusu məni məhv edir, gözəlim*
*"Candan şirin nə var?!" deyən, vallah, səhv*
*edir, gözəlim.*
*Can şirindir o halda ki, candan şirin*
*cananı var*
*Könül o cananı istər, can da o cana can atar.*
*Həyatımda tutduğun yer, gözəl, necə də*
*dərinmiş*
*İllərlə bəslənən sevgi candan qat-qat çox*
*şirinmiş.*
*...Dünyada hər növ insan var-böyük, kiçik,*
*adlı-sanlı...*
*Gülüm, sənsiz ölür biri-yazıq, fağır İsaxanlı...*

Hamlet İsaxanlı yaradıcılığında poema janrına da müraciət edir; çağdaş poeziyada bu janr əvvəlki dövrlərə nisbətən bir qədər geri çəkilsə də, yeni formaları yaranmaqdadır. Bu mənada şairin "Ziyarət" poeması xüsusi yer tutur. Ayrı-ayrı şeirlərdən ("Şükür gəldik kəndimizə", "Dilimiz gödək olmasın", "O gözəllik qocalmışdı", "Yaşadığım mənə yetər", "Könül səsi" və s.) ibarət olan poemada şair doğulduğu yerin, həyati, olub-keçmiş, lakin əbədi iz salan hadisələrin etnoqrafik təsvirini verir.

Poema xatirə-retrospeksiya formasında qələmə alınmışdır. Uzun müddətdir ki, ananı ziyarət etməyən oğul nəhayət "doğulduğu", "boy atdığı" kəndə gedir. Yaddaş poemanın leytmotivinə çevrilir. Ana obrazı əsərdə simvollaşır, yalnız konkret bir kəsi dünyaya gətirən qadını deyil, həm də həmin adamın dünyaya gəldiyi ocağı, yurdu, eli-obanı təmsil edir və vətən məfhumu ilə eyniləşir. Uzun müddətdir oğlu ilə görüşməyən Ana bu görüşü qismət hesab edir. Bununla şair insanın öz kökündən ayrılmadığını, daim onunla nəfəs aldığını, yaddaşında kök saldığını göstərmək istəmişdir. O, haraya getsə, harada yaşasa da, yaddaş da onunla bərabər yaşayır və nəhayət onu yenidən geriyə qaytarır. Şair konkret hadisələri təsvir etməklə yanaşı, lirik kənaraçıxmalarda insan – dünya – zaman probleminə də nəzər salır. Poemanın "Çaylar axmazmış tərsinə" hissəsində doğma yurduna qayıdan qəhrəmanın dili ilə xatirələri belə təsvir edir:

*Gördüm ki, doğma evdəyəm...*
*Ev o evdir, bağ da o bağ*
*Həm böyüyəm, həm də uşaq...*
*Yaşıllaşıb yaza sarı*
*Yumşaq söyüd budaqları.*
*Canıma soyuq dolubdu*
*Qışla yazın arasında*
*Əllərim çat-çat olubdu.*

"Ziyarət" poemasında yurda bağlılıq, ona qovuşmaq və onu qorumaq hissi poetik şəkildə təlqin edilir. Açıq tendensiya ilə deyilməsə də, yurda sədaqət, doğma torpağa bağlılıq poemanın əsas leytmotividir.

Ümumiyyətlə, H.İsaxanlı poeziyasında özünün daxili aləmini, düşüncələrini, həyata baxışını ifadə edir, bu aləmdən gələn sualları oxucuya ünvanlayır. Oxucu da bu suallara cavab tapmağa çalışır. Burada obrazlılıq və obrazlar mahiyyət etibarilə yenidir, poetik fikirlərində daxili hərəkət, dinamizm təkilləyicidir, gücləndir. Bu şeirlərin başlıca obrazları insanın əzəli və əbədi atributları ləyaqət, mənəviyyat, düzlük, doğruçuluq, sədaqət, sevgidir. Bu mənada H.İsaxanlının poeziyası həm də şəxsi ləyaqətinin, mənəviyyatının və istedadının anatomiyasıdır; necə varsa, eləcə də görünür...

## AN ARTICLE ABOUT HAMLET ISAKHANLI'S POETIC CREATIVITY

On May 5, 2018, "525-ci qəzet" published a voluminous article "*The anatomy of Dignity*" by Prof. Badirkhan Ahmadli, which is dedicated to Prof. Hamlet Isakhanli's, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, poetic creativity. The author precisely studies and interprets specific original features of poems by Hamlet Isakhanli.